# QIZILAĞAC KÖRFƏZİ AKVATORİYASINDA HAVANIN VƏ SU SƏTHİNİN TEMPERATURUNUN REANALİZ MƏLUMATLARI ƏSASINDA TƏDQİQİ

**İradə Əhlimanova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu, irahlimanova@gmail.com*

Xəzər dənizinin cənub-qərbində yerləşən Qızılağac körfəzi Azərbaycan Respublikası üçün həm coğrafi, həm də iqtisadi nöqteyi-nəzərdən mühüm olan su hövzələrindən biridir. Körfəz ərazisində eyniadlı dövlət qoruğu yerləşir. Qoruqda köçəri su quşları müvəqqəti məskunlaşır. Məhz bu baxımdan körfəzin iqlim şəraitinin öyrənilməsi aktual məsələlərdən biridir.

Körfəzin səthində havanın temperaturunun qiymətləndirilməsi məqsədilə 1948-2021-ci illəri əhatə edən reanaliz məlumatlarından istifadə olunmuşdur. Bu məlumatlar NCEP-PSL (NOAA) və GIOVANNİ (NASA) portallarının müvafiq platformalarından əldə edilmişdir.




**Şəkil 2.** Qızılağac körfəzində havanın temperaturunun NCEP/NOAA bazasından əldə edilmiş reanaliz məlumatları əsasında zaman gedişat qrafiki

Xətti trend baxılan dövrdə temperaturun ümumi dəyişmə tendensiyasını göstərir. Lakin qrafikdən göründüyü kimi, xətti trend ümumi dəyişmə tendensiyasını etibarlı xarakterizə edə bilmir ($R^2$=0.1363). Polynomial approksimasiya isə dəyişmələrin xarakterini daha etibarlı göstərə bilir. Beləliklə, şəkil 2-dən göründüyü kimi, 1948-ci ildən 1970-ci ilə qədər havanın illik orta temperaturu kəskin azalmış, sonra 1998-ci ilə qədər kəskin artmış, 2012-ci ilə qədər cüzi azalmış, 2021-ci ilə qədər isə yenidən kəskin artmışdır. Baxılan dövrdə ərazidə illik orta temperaturun ən aşağı qiyməti 1969-cu ildə (14,6 $^0$C), ən yuxarı qiyməti isə 1995-ci ildə (18,4 $^0$C) qeydə alınmışdır.

Dəniz səthinin temperaturu (DST) dedikdə dənizin səthinə yaxın olan su təbəqəsinin temperaturu başa düşülür. Dənizin səthi isə suyun 1 mm ilə 20 m arasında olan üst təbəqəsidir. Qızılağac körfəzində su səthinin temperaturunun tədqiqi məqsədilə əldə edilmiş reanaliz məlumatları isə GIOVANNI/NASA portalının GPM (Global Precipitation Measurement) platformasına aiddir. Bu məlumatlar 2003-2020-ci illəri əhatə edir.

Şəkil 3-dən göründüyü kimi, baxılan dövrdə iqlim dəyişikləri ilə əlaqədar olaraq, körfəzin səth temperaturunda artım tendensiyası müşahidə edilir (0,7$^o$C). İllik orta temperaturun ən yüksək qiyməti (18,4°C) 2012 və 2019-cu illərdə, ən aşağı qiyməti (17$^o$C) isə 2003-cü ildə qeydə alınmışdır.




**Şəkil 3.** Qızılağac körfəzində su səthinin illik orta temperaturunun reanaliz məlumatlarına əsasən illər üzrə gedişat qrafiki